Azərbaycan Respublikasının Prezidenti yanında

ELMIN İNKIŞAFI FONDU

# 2019-cu ildəki fəaliyyət haqqında

# HESABAT

Bakı, yanvar-2020-ci il

# Azərbaycan Respublikasının Prezidenti yanında

# Elmin İnkişafı Fondu

## Xərclər smetasının icrası

| Sıra №-si | Xərclərin iqtisadi təsnifatı | Məbləğ (manat) |
|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun saxlanılması xərcləri, o cümlədən: | 371892.32 |
| 1.1. | ştatda olan işçilərin əmək haqqı | 94078.08 |
| 1.2. | ştatdankənar işçilərin əmək haqqı | 59527.84 |
| 1.3. | əməyin ödənişi ilə bağlı sair pul ödənişləri | 31098 |
| 1.4. | Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 40634.82 |
| 1.5. | Bank xərcləri | 538.4 |
| 1.6. | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu üçün inventar və avadanlıqların alınması, mətbu nəşrlərin təsis edilməsi, xüsusi bülletenlərin buraxılması, konfransların, simpoziumların, seminarların təşkil edilməsi, işçilərin bu tədbirlərdə iştirakı ilə əlaqədar xidməti ezamiyyə, ekspertlərin xərclərinin ödənilməsi və Fondun fəaliyyəti ilə bağlı digər xərclər | 146015.18 |
| 2. | Azərbaycan Respublikasında elmi təşkilatlar, təhsil müəssisələri, digər müvafiq qurumlar və fiziki şəxslər tərəfindən təqdim edilmiş təbiət, texniki, humanitar, fundamental və ictimai elm sahələrində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən proqramların, layihələrin və digər tədbirlərin maliyyələşdirilməsi xərcləri | 34550 |
| | **Cəmi** | **406442.32** |

# Qrant müsabiqələri

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra "Elmin İnkişafı Fondu" və ya "Fond" adlandırılacaqdır) fundamental və tətbiqi xarakterli elmi-tədqiqat layihələrinin üstünlük təşkil etdiyi illik "Əsas qrant müsabiqəsi" ilə yanaşı, beynəlxalq sazişlər əsasında birgə qrant müsabiqələri, həmçinin Dövlət Proqramları çərçivəsində, ölkədə elmin inkişafı prioritetlərinə və Fondun fəaliyyət istiqamətlərinə uyğun olaraq məqsədli qrant müsabiqələri ("Gənc alim və tədqiqatçıların qrant müsabiqəsi", "Şuşa qrantı", "Mobillik qrantı", "Sənaye" qrantı, "Universitet qrantı", "İKT qrantı" müsabiqələri, "Elm-təhsil inteqrasiyası" müsabiqəsi, "Kompleks elmi-tədqiqat proqram layihələri" üzrə qrant müsabiqəsi, "Türk Dünyası Araşdırmaları" məqsədli qrant müsabiqəsi, 2-ci Azərbaycan-Belarus birgə beynəlxalq müsabiqəsi, 1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsi və s.) də təşkil edərək keçirir.

**"Əsas qrant müsabiqəsi"** və **"Kompleks elmi-tədqiqat proqram layihələri" üzrə qrant müsabiqələri** bir qayda olaraq, böyük maliyyə həcmli olmaqla, multidissiplinar tədqiqatları da əhatə edir, bu müsabiqələrdə Azərbaycan Milli Elmlər Akademiyasında (bundan sonra "AMEA" adlandırılacaqdır), ali təhsil müəssisələrində, sahə elmi-tədqiqat institutlarında və digər əlaqəli qurumlarda (dövlət qurumları, qeyri-hökumət təşkilatları və s.) çalışan alim və mütəxəssislər yaradıcı kollektiv şəklində iştirak edir.

Bu qrant layihələri üzrə stimullaşdırıcı əmək haqqı və ezamiyyətlərlə (yerli və xarici) yanaşı, elmi tədqiqatların maddi-texniki bazasının (elmi cihazlar, avadanlıq və qurğular, elmi fəaliyyət üçün məmulatlar, ləvazimat və qeyri-maddi aktivlər və s.) ən modern səviyyədə yenilənməsi, elmi araşdırmalarla əlaqəli müvafiq iş və xidmətlərin yerinə yetirilməsi, xaricdə aparıcı təşkilatlarda milli kadr hazırlığının təşkil olunması da Elmin İnkişafı Fondu tərəfindən maliyyələşdirilməklə həyata keçirilir.

Müsabiqəyə daxil olmuş bütün layihələr müstəqil elmi ekspertlərin iştirakı ilə və konfidensiallıq şərti qorunmaqla elmi ekspertizadan keçirilir, yerli ekspertlərə birdəfəlik əməkhaqqı da ödənilir. Ekspertiza işinə xarici ekspertlər, diasporadakı alimlərimiz də intensiv şəkildə cəlb olunur.

Fondun qrant müsabiqələrinə daxil olan bütün layihələr əqli mülkiyyət hüququnun subyekti kimi Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilir, qalib olmuş qrant layihələrin icrası üzrə müqavilələr isə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınır.

Elmin İnkişafı Fondu 2018-cı il ərzində 4 yeni qrant müsabiqəsi elan etmişdir. Bu müsabiqələr üzrə ətraflı məlumat aşağıda əlavə olunur və eyni zamanda Fondun rəsmi internet portalından (http://sdf.gov.az) da əldə edilə bilər.

Hesabat ilində Elmin İnkişafı Fondu 2018-2019-cu ildə nəticələri elan edilmiş və 2019-ci ildə icrası davam edən və ya başa çatmış bir sıra qalib qrant layihələrinin maliyyələşdirilməsi üzrə işləri yerinə yetirmişdir (ətraflı məlumat aşağıda verilir).

## 1. 2017-2019-cu illərin qrant müsabiqələrinin nəticələri üzrə yerinə yetirilən layihələr

Elmin İnkişafı Fondunun maliyyələşdirdiyi fundamental və tətbiqi xarakterli elmi-tədqiqat layihələrinin icra müddəti 1 ildən 3 ilədəkdir və bu müddət ciddi elmi nəticələr almağa imkan verir. Bu səbəbdən, 2019-cu il ərzində də Elmin İnkişafı Fondunun 2017-2019-cu illərdə təşkil edərək keçirdiyi qrant müsabiqələrinin qalibi olmuş 109 layihə üzrə Fond tərəfindən maliyyələşdirilmə həyata keçirilmiş, elmi-tədqiqat işləri yerinə yetirilmiş, elmi ezamiyyətlər və təcrübəkeçmələr təşkil olunmuş, açıq tenderlər yolu ilə cihaz,

avadanlıq və s. alınmış, iş və xidmətlər yerinə yetirilmiş, nəşrlər baş tutmuş, elmi və maliyyə hesabatları alınmış, layihələr elmi-texniki cəhətdən monitorinq edilmişdir.

## 2. Kompleks elmi-tədqiqat proqramları layihələri üzrə böyük maliyyə həcmli Əsas qrant müsabiqələri

2015-ci il 11 dekabr tarixində elan edilmiş 2-ci kompleks elmi-tədqiqat proqramları üzrə böyük maliyyə həcmli Əsas qrant müsabiqəsinin nəticələri 2016-cı il 27 oktyabr tarixində açıqlanmışdır. Müsabiqəyə daxil olmuş 133 layihə sırasından ikiqat, üçqat və daha çox sayda müstəqil ekspertiza rəyi, Fondun daimi ekspertlərinin və Himayədarlar Şurasının rəyi əsasında ciddi seçim edilmiş, 56 qalib layihə müəyyənləşdirilmişdir (bax: http://sdf.gov.az/development/uploads/cari_qrant/eif-ketpl-2015-1 25_qalib_layihelerin_siyahisi.pdf).

Ümumi maliyyələşdirilmə həcmi 9.870.000 manat olan bu kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin maliyyələşdirilməsinə artıq 2016-cı ilin noyabr ayında başlanılmış və bu layihələr 2018 və 2019-cu illərdə də maliyyələşdirilib.

Müsabiqənin əsas elmi prioritetləri: Yüksək enerjilər fizikası; Müxtəlif sistemlər üçün kvant hesablamaları; Müdafiə və təhlükəsizlik istiqamətində elmi-texniki tədqiqatlar; Kosmik tədqiqatlar, Yerin məsafədən zondlanması; İnformasiya təhlükəsizliyinin təmin olunması; Alternativ enerji mənbələri; Molekulyar-genetik tədqiqatlar; Kənd təsərrüfatı biotexnologiyaları, torpaq münbitliyi və ərzaq təhlükəsizliyi; Kök-hüceyrə tədqiqatları, herantologiya; Hidrofob və antibakterial xassəli yeni polimerlərin tədqiqi; Kimyəvi kinetika və kataliz üzrə tədqiqatlar; İzotop geologiyası və geoxronologiya; Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik; Yeni müstəqillik tarixi; Multikulturalizm və dini dəyərlər; Azərbaycan dilinin lüğət tərkibinin inkişafı; Azərbaycan və Qafqaz tarixinə dair Şərq yazılı mənbələrinin tədqiqi; Azərbaycan mühacirət ədəbiyyatı; İqtisadi inkişaf modelləri olmuşdur.

Qalib layihələr **AMEA-nın** Fizika, Radiasiya Problemləri, İdarəetmə Sistemləri, İnformasiya Texnologiyaları, Molekulyar Biologiya və Biotexnologiyalar, Fiziologiya, Kataliz və Qeyri-üzvi Kimya, Neft-Kimya Prosesləri, Geologiya və Geofizika, Coğrafiya, İqtisadiyyat, Zoologiya, Botanika, Genetik Ehtiyatlar, Şərqşünaslıq, Dilçilik, Ədəbiyyat, Elm Tarixi, Folklor, Arxeologiya və Etnoqrafiya, Əlyazmalar, AMEA Naxçıvan Bölməsinin Dil və Ədəbiyyat, Bioresurslar və Tarix, Etnoqrafiya və Arxeologiya institutlarında, AMEA Yüksək Texnologiyalar Parkında, AMEA Gəncə Bölməsində, Mərkəzi Elmi Kitabxanada, Şamaxı Astrofizika Rəsədxanasında, Təcrübə-Sənaye Zavodunda, həmçinin **ali təhsil müəssisələri** olan Milli Aviasiya Akademiyasında, Bakı Dövlət Universitetində, Azərbaycan Tibb Universitetində, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində, bu universitetin “Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya” Elmi-Tədqiqat İnstitutunda, Xəzər Universitetində, Azərbaycan Texniki Universitetində, AR Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində və Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda yerinə yetirilmiş və ya yetirilməkdədir.

Multidissiplinar xarakterli layihələrin reallaşdırılmasında adıçəkilən qurumların əməkdaşları ilə yanaşı, AMEA Riyaziyyat və Mexanika, Neft və Qaz, Mikrobiologiya, Torpaqşünaslıq və Aqrokimya, Fəlsəfə, Tarix institutlarının, Respublika Seysmoloji Xidmət Mərkəzinin, AMEA RH İnnovasiya şöbəsinin, Şəki Regional Elmi Mərkəzinin, AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun, həmçinin AR Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, AR Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin, AR Kənd Təsərrüfatı Nazirliyinin

Elmi-Tədqiqat Əkinçilik İnstitutunun, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının, Azərbaycan Mühəndislik Akademiyasının, Bakı Ali Neft Məktəbinin, BDU Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun, AR Səhiyyə Nazirliyinin Həkimləri Təkmilləşdirmə İnstitutunun, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Dövlət Universitetinin, Naxçıvanşünaslıq Mərkəzinin alim və mütəxəssisləri də iştirak edirlər.

Azərbaycan Neft Mühəndisləri Cəmiyyətinin, “Azərkosmos” ASC, AR Meliorasiya və Su Təsərrüfatı ASC-nin Azərbaycan hidrotexnika və meliorasiya elm-istehsalat birliyinin, AR RYTN “Milli Nüvə Tədqiqatları Mərkəzi” QSC, Azərbaycan Banklar Assosiasiyasının, “Azərsu” ASC-nin, “Oil Supply” LLC-nin əməkdaşları da layihələrdə təmsil olunmuşdur.

Fizika-riyaziyyat və texnika elmləri üzrə 16, kimya elmləri üzrə 10, Yer haqqında elmlər üzrə 7, biologiya, tibb və aqrar elmləri üzrə 11 və humanitar və ictimai elmlər üzrə 12 layihə qalib olmuşdur. Layihələrin icra müddəti 12 aydan 36 ayadəkdir və bu müddət əhəmiyyətli və tətbiqi xarakterli nəticələrin alınmasına imkan verir.

Elmin İnkişafı Fondu gələcəkdə də kompleks elmi-tədqiqat proqramları üzrə böyük maliyyə həcmli və bir neçə il icra müddəti olan qrant layihələrini dəstəkləyəcəkdir.

Yerinə yetirilmiş layihələr üzrə alınmış elmi nəticələrin əks olunduğu və dərc olunmuş məqalələr haqqında məlumat Fondun internet portalında yerləşdirilmişdir: http://sdf.gov.az/az/generic/menu/Detail/127/menu//. Bu məlumat daim yenilənir.

## 3. “Elm-Təhsil İnteqrasiyası” məqsədli qrant müsabiqəsi

Müsabiqə 2016-cı il 21 dekabr tarixində keçirilmiş AMEA-nın Ümumi yığıncağı və Təhsil Nazirliyinin Kollegiyasının birgə Elmi sessiyasının Azərbaycanda elmlə təhsilin inteqrasiyası istiqamətində müəyyənləşdirilmiş məqsədlərinə də müvafiqdir.

Müsabiqə akademik və ali təhsil sistemindəki elmi-tədqiqat müəssisələrinin elmi fəaliyyətini stimullaşdırmaq, modern elmi cihaz, avadanlıq və qurğularla təminatını təkmilləşdirmək, elmin ayrıca götürülmüş sahə və istiqamətlərinin davamlı inkişafını əlavə olaraq dəstəkləmək, kadr hazırlığını təmin etmək məqsədi ilə akademik və ali təhsil qurumlarından olan alimlərin müvəqqəti yaradılmış elmi-yaradıcı kollektivləri tərəfindən təqdim edilmiş fundamental və tətbiqi xarakterli layihələrə müxtəlif maliyyə həcmli qrantlar (icra müddəti 1 il olan hər layihə üçün 100 min manatadək) verilməsi yolu ilə keçirilir.

Bu müsabiqədə iştirak edən və qalib olan layihələrin icrası üzrə müvəqqəti yaradıcı kollektiv formalaşdırılarkən akademik və təhsil qurumlarında olan alimlərin sayında paritet gözləniləcəkdir. Müsabiqədə iştirak etmək üçün layihələr 2017-ci ilin yanvarın 5-dən fevralın 28-dək qəbul olunmuşdur. Sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək məqsədilə Fondun bir neçə məsləhət seminarı keçirilmişdir.

Müsabiqəyə 138 layihə daxil olmuş, 134 layihə elmi ekspertizaya (yerli və xarici müstəqil ekspertlərə) göndərilmişdir.

Elmi ekspertiza işi tamamlanmışdır və bu müsabiqənin nəticələrinin 2018-ci idə açıqlanmışdı.

“Elm-Təhsil İnteqrasiyası” qrant müsabiqəsi çərçivəsində 69 fundamental-tətbiqi xarakterli və 2 xüsusi qalib layihə müəyyənləşdirilmiş (siyahı əlavə olunur) və Elmin İnkişafı Fondunun müvafiq Qərarı ilə təsdiq olunmuşdur. Uğur dərəcəsi (daxil olan və qalib olan layihələrin sayı üzrə) kifayət qədər yüksək - 51.45% olmuşdur. Fizika-riyaziyyat və texnika elmləri üzrə 21, kimya elmləri üzrə 11, Yer haqqında elmlər üzrə 9, biologiya, tibb

və aqrar elmləri üzrə 11, humanitar və ictimai elmlər üzrə isə 17 layihə qalib olmuşdur. Layihələrin maliyyələşdirilmə həcmi 25- 95 min manat arasında dəyişir.

Cari müsabiqə üzrə Azərbaycan tərəfi üçün ümumi maliyyələşdirilmə həcmi 4 milyon 90 min manat olmuşdur. 70 layihənin icra müddəti 1 il, 1 layihənin icra müddəti isə 2 ildir. Layihələr akademik və ali təhsil müəssisəsindən olan 2 rəhbərlə (əsas rəhbər və həm-rəhbər) təmsil olunur və müsabiqədə iştirak edən müvəqqəti yaradıcı kollektivin formalaşdırılmasında akademik və təhsil qurumlarında olan alimlərin sayında paritet gözlənilmişdir. Rəhbər və həm- 4 rəhbərlər sırasında 109 nəfər kişi, 31 nəfər isə qadın vardır.

Qalib layihələrin maliyyələşdirilməsi 2018-ci ildən başlayıb.

## 4. 2-ci Azərbaycan-Belarus birgə beynəlxalq qrant müsabiqəsi

Elmin İnkişafı Fondu müxtəlif ölkələrdə fəaliyyət göstərən analoji qurumlarla (fondlarla, agentliklərlə, şuralar ilə) beynəlxalq əlaqələrini genişləndirir və birgə qrant müsabiqələri təşkil edərək keçirir.

Elmin İnkişafı Fondu ilə Belarus Milli Elmlər Akademiyası və Belarus Respublika Fundamental Tədqiqatlar Fondu arasında 2012-ci il 28 sentyabr tarixində Minsk şəhərində imzalanmış əməkdaşlıq haqqında beynəlxalq Sazişə əsasən 2012-ci il 28 dekabr tarixində 1-ci Azərbaycan-Belarus birgə beynəlxalq qrant müsabiqəsi elan edilmiş, 2013-cü il 6 iyun tarixində nəticələr açıqlanmış və 7 qalib layihə müəyyənləşdirilmişdir. Ötən illər ərzində bu layihələr uğurla yerinə yetirilmişdir.

Elmin İnkişafı Fondu və Belarus Respublika Fundamental Tədqiqatlar Fondu tərəfindən təşkil olunmuş Birgə müsabiqə komissiyasının 2014-cü il 20 oktyabr tarixində Bakı şəhərində keçirilmiş iclasında 1-ci müsabiqənin gedişi müzakirə olunmuşdur. 1-ci müsabiqənin uğurları və əldə edilmiş nəticələr növbəti birgə qrant müsabiqəsinin keçirilməsi üçün zəmin yaratmışdır.

Əməkdaşlığın perspektivləri nəzərə alınmaqla 2015-ci il 28 noyabr tarixində Minsk şəhərində "Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Belarus Milli Elmlər Akademiyası, Belarus Respublika Fundamental Tədqiqatlar Fondu arasında əməkdaşlıq haqqında" dördtərəfli beynəlxalq Saziş imzalanmışdır.

2016-cı il 19 may tarixində Minsk şəhərində Belarus Respublika Fundamental Tədqiqatlar Fondunda Birgə müsabiqə komissiyasının iclasında keçirilməsi planlaşdırılan növbəti 2-ci birgə qrant müsabiqəsinin müzakirəsi aparılmış, tərəflər arasında rəsmi Protokol imzalanmışdır.

Yuxarıda qeyd olunan sənədlər nəzərə alınmaqla, Elmin İnkişafı Fondu Azərbaycan və Belarus alimlərindən ibarət müvəqqəti yaradılmış yaradıcı kollektivlərin birgə yerinə yetirilməsi planlaşdırılan və hər dörd tərəf üçün aktual olan elmi istiqamətlər üzrə elmi-tədqiqat layihələrini dəstəkləmək, beynəlxalq elmi əməkdaşlıq fəaliyyətini stimullaşdırmaq və müasir elmi problemlərin həlli üçün əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə qeyd olunan dördtərəfli Sazişin müddəalarını nəzərə almaqla, cari müsabiqənin razılaşdırılmış elmi prioritetlərinə uyğun olaraq, 2-ci Azərbaycan-Belarus dördtərəfli birgə beynəlxalq qrant müsabiqəsini 2017-ci il 16 mart tarixində elan etmişdir.

Müsabiqə çərçivəsində fundamental və tətbiqi xarakterli və 100 000 manatadək maliyyə həcmli layihələrin dəstəklənməsi nəzərdə tutulmuşdur.

Müsabiqədə iştirak etmək üçün layihələr 2017-ci il martın 16-dan mayın 15-dək qəbul olunmuşdur. Müsabiqəyə layihələr Elmin İnkişafı Fondunun yaratdığı innovative texnologiya olan “e-QRANT”=“Qrant layihələrinin Elektron İdarəolunması Sistemi” vasitəsilə təqdim edilmişdir.

Müsabiqədə AMEA təşkilatlarından, ali təhsil müəssisələrindən, nazirliklərin nəzdindəki elmi-tədqiqat qurumlarından alim və mütəxəssislər fərdi qaydada iştirak etmişlər. Sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddətdə iddiaçılara kömək və sualların cavablandırılması məqsədilə Elmin İnkişafı Fondunda məsləhət seminarları keçirilmişdir.

Elmin İnkişafı Fondu müsabiqəyə təqdim olunmuş layihələrin elmi ekspertizası işini təşkil etmişdir. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə rəylər, arayışlar və tövsiyələr hazırlamışdır.

Nəticələr Elmin İnkişafı Fondu və Belarus Respublika Fundamental Tədqiqatlar Fondunun Birgə Komissiyasında da müzakirə olunmuşdur.

2017-ci il 26 dekabr tarixində 2-ci Azərbaycan-Belarus müsabiqəsinin nəticələri təsdiq olunmuşdur.

2-ci Azərbaycan-Belarus dördtərəfli birgə beynəlxalq qrant müsabiqəsi üzrə ümumi maliyyələşdirilmə həcmi 1 milyon manat olmaqla 15 qalib layihə müəyyənləşdirilmişdir. Uğur dərəcəsi (daxil olan və qalib olan layihələrin sayı üzrə) kifayət qədər yüksək (55%) olmuşdur.

Multidissiplinar və tətbiqi xarakterli tədqiqatlara, müxtəlif akademik və təhsil qurumlarından, sahə elmi-tədqiqat institutlarından olan alim və mütəxəssislər tərəfindən yerinə yetirilməsi planlaşdırılan elmi-tədqiqat mövzuları üzrə təqdim olunmuş layihələrə elmi ekspertizanın nəticələri əsasında seçim zamanı üstünlük verilmişdir.

Müsabiqə üzrə qalib layihələr AMEA-nın Fizika, Polimer Materialları, Aşqarlar Kimyası, Kataliz və Qeyri-Üzvi Kimya, Botanika, Fiziologiya, Mikrobiologiya, İqtisadiyyat və Tarix institutlarında, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialı, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetində, həmçinin Azərbaycan Dövlət Neft Şirkətində yerinə yetiriləcəkdir. Qalib layihələrin hamısı fundamental-tətbiqi xarakterlidir.

Fizika-riyaziyyat və texnika elmləri üzrə 7 layihə, Kimya elmləri üzrə 2 layihə, Biologiya, tibb və aqrar elmləri üzrə 3 layihə, Humanitar və ictimai elmlər üzrə isə 3 layihə qalib olmuşdur. Qalib layihə rəhbərlərindən 6-sı qadındır.

Qalib layihələrin maliyyələşdirilməsi 2018-ci ildən başlayıb.

## 5. 1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsi

Fond Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Elmin İnkişafı Fondu, Federal dövlət büdcə təşkilatı “Rusiya Fundamental Tədqiqatlar Fondu” və AMEA arasında imzalanmış əməkdaşlıq haqqında üçtərəfli beynəlxalq Sazişin müddəalarını və keçirilməsi planlaşdırılan ilk birgə qrant müsabiqəsi üzrə imzalanmış rəsmi Protokolu nəzərə almaqla 1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsini 2016-cı il mayın 17-də elan etmişdir.

Birgə müsabiqə Komissiyanın 2017-ci il 19 yanvar tarixində Moskva şəhərində Rusiya Fundamental Tədqiqatlar Fondunda keçirilmiş iclasında yuxarıda qeyd olunan Sazişə əsasən keçirilməsi planlaşdırılan 1-ci birgə Azərbaycan-Rusiya beynəlxalq qrant müsabiqəsinin (“AzRus-1”) şərtləri, prioritetləri, maliyyələşdirilmə həcmi və müddəti, ekspertiza meyarları, iki tərəf üçün maraq kəsb edən bir sıra elmi layihələrin mövzuları, müsabiqə elanı və keçirilməsi qaydaları və s. məsələlər müzakirə olunmuşdur.

1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsi Azərbaycan və Rusiya alimlərindən ibarət müvəqqəti yaradılmış yaradıcı kollektivlərin birgə yerinə yetirilməsi planlaşdırılan və hər iki tərəf üçün aktual olan elmi istiqamətlər üzrə fundamental-tətbiqi xarakterli elmi-tədqiqat layihələrini dəstəkləmək, beynəlxalq elmi əməkdaşlıq fəaliyyətini stimullaşdırmaq və müasir elmi problemlərin həlli üçün əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə, tərəflər arasında imzalanmış əməkdaşlıq haqqında Sazişin müddəalarını nəzərə almaqla, cari müsabiqənin razılaşdırılmış elmi prioritetlərinə uyğun olaraq keçirilir.
Müsabiqə çərçivəsində fundamental-tətbiqi xarakterli, icra müddəti 2 il olan və 200 min manatadək maliyyə həcmli layihələr Elmin İnkişafı Fondu tərəfindən dəstəklənəcəkdir.
Müsabiqədə iştirak etmək üçün layihələr 2017-ci il 28 mart – 29 iyun tarixləri arasında qəbul olunmuşdur. Müsabiqəyə layihələr “e-QRANT”-“Qrant layihələrinin Elektron İdarəolunması Sistemi” vasitəsilə təqdim edilmişdir. Qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə Fondun bir neçə məsləhət seminarı keçirilmişdir.

Müsabiqəyə 73 layihə daxil olmuş, 70 layihə elmi ekspertizaya (yerli və xarici müstəqil ekspertlərə) göndərilmişdir.

Elmi ekspertiza işi tamamlanmışdır və bu müsabiqənin nəticələrinin Birgə Komissiyanın qərarından sonra, 2018-ci ildə açıqlanmışdır. Qalib layihələrin maliyyələşdirilməsi 2018-ci ildən başlayıb.

## Elektron Hökumət

“Elektron Hökumət” - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır.

Yaradılan imkanların əsas məqsədi xidmət təminatında qurumlar və vətəndaşlar arasında olan “məsafəni” azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır.

Elmin İnkişafı Fondu da öz fəaliyyətini bu istiqamətdə təkmilləşdirir.

**1. e-Qrant - “Qrant Layihələrinin Elektron İdarəolunması Sistemi”**




Elmin İnkişafı Fondu müsabiqələrdə qrant iddiaçılarının və müstəqil elmi ekspertlərin iştirakını “elektron-hökumət” prinsiplərinə uyğun olaraq təşkil edir. 2017-ci il ərzində “e-QRANT” brendi altında “Qrant Layihələrinin Elektron İdarəolunması Sistemi”nin (http://e-grant.sdf.gov.az/) birinci hissəsi (qrant layihələrinin elektron şəkildə online rejimində təqdim olunması) tamamlanaraq sınaqdan çıxarılmış və tam istifadəyə verilmişdir.

2019-cu ildə “Qrant Layihələrinin Elektron İdarəolunması Sistemi” çərçivəsində elektron-ekspertiza işinin təkmilləşdirilməsi prosesi davam etdirilmiş, sınaqdan keçirilmişdir.

“e-QRANT” sistemi “ASAN-İmza”dan istifadəni nəzərdə tutub və bununla bağlı “B.EST SOLUTİONS” şirkəti ilə Fond arasında müvafiq müqavilə imzalanmışdır.

**2. Elmin İnkişafı Fondunun rəsmi internet portalı**

Elmin İnkişafı Fondunun şəffaflıq prinsipləri üzərində təşkil edilmiş fəaliyyətinə və müasir standartlara cavab verən yeni rəsmi internet portalı (www.sdf.gov.az) 2019-cu ildə daha da təkmilləşdirilmişdir. Fondun fəaliyyəti haqqında dolğun informasiya burada yerləşdirilmişdir və daim yenilənməkdədir.

Fondun rəsmi internet portalı “İLK10” Azərbaycan internet reytinqinin (www.ilk10.az) “Elm və tədqiqatlar” bölməsində 2019-cu il ərzində daimi olaraq 1-ci yerdə qərarlaşmışdır.




**www.sdf.gov.az**

# Dövlət Proqramlarında iştirak

Elmin İnkişafı Fondunun Dövlət Proqramlarında iştirakla bağlı kifayət qədər təcrübəsi vardır. Fond əvvəlki illərdə "Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya Texnologiyaları ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"na, "Azərbaycan Respublikasında 2014-cü ilin "Sənaye ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"na, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"na uyğun olaraq qrant müsabiqələri təşkil edərək keçirmişdir.

**1. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nda iştirak**

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.3.-"Yüksək texnologiyalar üzrə elmi-texniki potensialın gücləndirilməsi" bölməsinin 5.3.1.-5.3.3.-cü bəndlərində göstərilən müxtəlif xarakterli tədbirlərin 2016-2020-ci illəri əhatə edən dövrdə icrasında digər dövlət qurumları ilə yanaşı Elmin İnkişafı Fondu da iştirak edir.

Əlaqələndirmə Şurasının qərarına uyğun olaraq, bu tədbirlər planının icrasında

Elmin İnkişafı Fondunun iştirakı ilə bağlı daxili tədbirlər planı hazırlanmışdır:

| **Sıra №-si** | **Tədbirin adı** | **Digər həm-icraçı qurumlar** | **İcra müddəti (illər üzrə)** |
|---|---|---|---|
| 1 | Yüksək texnologiyalara dair elmi-tədqiqat işlərinin reyestrinin yaradılmasında iştirak | AMEA, RYTN, Təhsil Nazirliyi, ARPY Ali Attestasiya Komissiyası | müntəzəm olaraq 2017-2020-ci illər ərzində |
| 2 | Yüksək texnologiyalar sahəsində forum, konfrans, dəyirmi masa və digər tədbirlərin təşkili və keçirilməsində iştirak | RYTN, AMEA, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi | müntəzəm olaraq 2017-2020-ci illər ərzində |
| 3 | Xaricdə yüksək texnologiyalar sahəsində çalışan və Azərbaycandan olan alim və mütəxəssislərlə əməkdaşlığın genişləndirilməsi işində iştirak, onların Elmin İnkişafı Fondunun birgə tədqiqat və proqramlarına, elmi ekspertizası, elmi prioritetlərin müəyyənləşdirilməsi və elmi konsultasiyası işlərinə cəlb edilməsi | AMEA, RYTN, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi | müntəzəm olaraq 2017-2020-ci illər ərzində |
| 4 | Yüksək texnologiyalar və / və ya İKT üzrə məqsədli qrant müsabiqələrinin (fundamental və tətbiqi xarakterli layihələrin maliyyələşdirilməsi, ən yaxşı elmi işlərin seçilərək mükafatlandırılması və s. üzrə) təşkil edilərək keçirilməsi | RYTN | 2018-2020-ci illərdə |
| 5 | Elmin İnkişafı Fondunun hər il keçirilən ənənəvi qrant müsabiqələrində yüksək texnologiyalar üzrə birgə (yerli və beynəlxalq) layihələrin də təqdim edilməsi və onların maliyyələşdirilməsi istiqamətində işlərin aparılması, məsləhət seminarlarının keçirilməsi | AMEA, RYTN, Təhsil Nazirliyi | müntəzəm olaraq 2017-2020-ci illər ərzində |

Elmin İnkişafı Fondu tərəfindən "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı əsasında 2019-cu ildə aşağıdakı işlər görülmüşdür.

Elmin İnkişafı Fondu tərəfindən müstəqil olaraq qrant müsabiqələrinə təqdim olunmuş layihələr əsasında yüksək texnologiyalara dair elmi-tədqiqat işlərinin xüsusi reyestri yaradılmışdır. Bu reyestrin qarşıdan gələn illərdə yeni müsabiqələr və Fondun ekspertlərinin məlumatları hesabına zənginləşdirilməsi və digər icraçıların (AMEA və b.) yaratdığı məlumat bazasına inteqrasiya edilməsi planlaşdırılır.

Elmin İnkişafı Fondunun hər il keçirilən ənənəvi qrant müsabiqələrində yüksək texnologiyalar üzrə birgə (yerli və beynəlxalq) layihələrin də təqdim edilməsi və onların maliyyələşdirilməsi istiqamətində işlər aparılmış, məsləhət onlayn seminarları keçirilmişdir. Yüksək texnologiyalar sahəsində də elm və təhsil əlaqələrinin gücləndirilməsi üçün Elmin İnkişafı Fondu tərəfindən 28 dekabr 2016-cı il tarixində elan olunmuş "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinə yüksək texnologiyalar və informasiya cəmiyyətinin inkişafına dair müştərək qrant layihələri də daxil olmuş və hal-hazırda onlar elmi ekspertiza mərhələsindədir.

Digər tərəfdən, Elmin İnkişafı Fondu tərəfindən 2017-ci il 28 mart tarixində elan olunmuş 1-ci Azərbaycan-Rusiya birgə beynəlxalq qrant müsabiqəsində ("AzRus-1") nəzərdə tutulmuş 7 prioritet siyahısında yarımkeçiricilər və bərk məhlullar fizikası, intellektual informasiya sistemləri, energetika, neft və qazın kəşfiyyatı, işlənilməsi və emalı üçün yeni materiallar və texnologiyalar sahəsində tədqiqatlar da vardır və həmin sahələrdə elmi-tədqiqat layihələri təqdim olunmuşdur.

Xaricdə yüksək texnologiyalar sahəsində çalışan azərbaycanlı alim və mütəxəssislər Elmin İnkişafı Fondunun qrant müsabiqələrinə daxil olmuş layihələrin elmi ekspertizası işinə, elmi prioritetlərin müəyyənləşdirilməsi prosesinə, qısamüddətli təcrübəkeçməyə rəhbərlik və elmi konsultasiya işlərinə qismən cəlb ediliblər.

## 2. "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramında iştirak

"Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Əlaqələndirmə Şurasının qərarına uyğun olaraq, "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.4.-"Gənclərin yaradıcılıq fəaliyyətinin dəstəklənməsi və asudə vaxtının təşkili" bölməsinin 5.4.1-bəndində, 5.5.-"Tələbələrin elmi, mədəni və ictimai fəaliyyətinin dəstəklənməsi" bölməsinin 5.5.2.-bəndində, 5.10.-"Gənclərin intellektual fəaliyyətinin dəstəklənməsi və elmə həvəsləndirilməsi" bölməsinin 5.10.1.-5.10.8.-bəndlərində göstərilən tədbirlərin 2017-2021-ci illəri əhatə edən dövrdə həyata keçirilməsinə dair tədbirlər planının icrasında Elmin İnkişafı Fondunun iştirakı ilə bağlı daxili tədbirlər planı hazırlanmışdır:

| Sıra №-si | Tədbirin adı | Digər həm-icraçı qurumlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | İstedadlı və Yaradıcı Gənclərin III Respublika Toplantısının keçirilməsi | Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, AMEA | 2018 |

| | | | |
|---|---|---|---|
| 2 | Tələbələrin elmi-tədqiqat işlərinə həvəsləndirilməsi və yaxından cəlb edilməsi | Təhsil Nazirliyi, AMEA, Gənclər və İdman Nazirliyi | 2017-2021 |
| 3 | Gənclərin intellektual inkişafa və elmi fəaliyyətə həvəsləndirilməsinə yönəlmiş layihələrin dəstəklənməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, AMEA, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu | mütəmadi olaraq |
| 4 | Gənc alim və tədqiqatçıların iştirak etdiyi layihələrə qrantların verilməsi üzrə müsabiqələrin təşkili | | 2017-2021 |
| 5 | Gənc alimlərin təcrübə mübadiləsi üçün şəraitin yaradılması, yerli və beynəlxalq elmi-praktiki konfrans, forum, festival, seminar və digər tədbirlərin keçirilməsi | AMEA, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi | 2017-2021 |
| 6 | Gənc istedadların üzə çıxarılması və dəstəklənməsi məqsədi ilə layihələrin həyata keçirilməsi | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, AMEA | hər il |
| 7 | İstedadlı şagird və tələbələrin, gənc alimlərin ölkə üçün prioritet olan beynəlxalq olimpiada, konfrans, forum, simpozium, seminar və məşğələlərdə iştirakının dəstəklənməsi | AMEA, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi | mütəmadi olaraq |
| 8 | Gənclərin elm, texnika və innovasiyalar sahəsinə marağını artırmaq məqsədi ilə televiziya proqramlarının hazırlanması | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, AMEA | 2017-2021 |

Gənc alim və tədqiqatçıların iştirak etdiyi layihələrə qrantların verilməsi üzrə müsabiqələrin təşkili, gənclərin intellektual inkişafa və elmi fəaliyyətə həvəsləndirilməsinə yönəlmiş layihələrin dəstəklənməsi üzrə konkret addımlar atılmışdır.

Elmin İnkişafı Fondu mütəmadi olaraq 35 yaşadək olan gənc alim və tədqiqatçıların üçün qrant müsabiqələrini təşkil edərək keçirmişdir və bu ənənə müxtəlif formatlarda bu gün də davam etdirilməkdədir.

Əvvəllər elan edilərək keçirilmiş 3 müsabiqənin uğurları əsas götürülməklə, növbəti 4-cü müsabiqə Elmin İnkişafı Fondu və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən birgə təşkil olunaraq, bu iki qurum arasında 2017-ci il 22 may tarixində imzalanmış Protokolun müddəaları nəzərə alınmaqla "Mənim ilk qrantım"

müsabiqəsi formatında 2017-ci il 25 may tarixində elan edilərək keçirilmiş, ümumi maliyyələşdirilmə həcmi 600000 manat olmaqla 19 qalib layihə müəyyənləşdirilmişdir. Qalib layihələr 2018-ci ildən başlayaraq maliyyələşdirilmişdir.

Tələbələrin elmi-tədqiqat işlərinə həvəsləndirilməsi və yaxından cəlb edilməsi üzrə işlər də yerinə yetirilmiş, bakalavr və magistr tələbələr müxtəlif növ qrant layihələrində icraçı qismində iştirak etmişlər.

Gənc alimlərin Elmin İnkişafı Fondunun digər müsabiqələrinin qalibi olmuş qrant layihələrində yaradıcı elmi kollektiv tərkibində iştirakı təmin edilmişdir.

Proqram çərçivəsində gənc alimlərin təcrübə mübadiləsi üçün şəraitin yaradılması, gənc alimlərin ölkə üçün prioritet olan beynəlxalq olimpiada, konfrans, forum, simpozium, seminar və məşğələlərdə iştirakının dəstəklənməsi əsasən 2017-ci ildə elan edilmiş 8-ci "Mobillik qrantı" müsabiqəsi üzrə layihələr vasitəsilə reallaşdırılmışdır. 26.09.2017–14.12.2017-ci il tarixləri arasında keçirilən 7 qısamüddətli elmi təcrübə, 2 xaricdə elmi tədbir xarakterli layihələrin icra müddəti 3 – 30 gün aralığında olmuşdur. Qalib layihələrin ümumi maliyyələşdirilmə həcmi 55 500 manat olmuşdur. 9 qrant layihəsi üzrə qaliblərin İspaniya, Türkiyə (3), Almaniya (2), Rusiya Federasiyası, Fransa və Gürcüstana ezamiyyə xərcləri ödənilmiş, onların orada baş tutan konfrans və tədbirlərdə iştirakı, təcrübəkeçmələri təmin edilmişdir.

Elmi fəaliyyətlə məşğul olan Gənc alim və tədqiqatçılar, bakalavr, magistr və tələbələr (35 yaşınadək olan Azərbaycan vətəndaşları) haqqında müvafiq məlumat bazası 2011-2017-ci illər ərzində yaradılmış, 650-yə yaxın Gənc alim və tədqiqatçı və digərləri haqqında peşəkar məlumat bu bazaya əlavə edilmişdir. Elmin İnkişafı Fondunun fəaliyyətinə uyğun olaraq bu məlumat bankının daim yenilənməsi və zənginləşdirilməsi prosesi müntəzəm olaraq həyata keçirilir.

Proqrama uyğun olaraq Elmin İnkişafı Fondunun gənc alimlər üçün mütəmadi olaraq məsləhət seminarları keçirilmiş, gənc alimlərin elmi nəşrlərinin dəstəklənməsi, onların müstəqil elmi ekspertiza işinə cəlb olunması, ölkədaxili və xarici elmi ezamiyyətlərə göndərilməsinin maliyyələşdirilməsi üzrə işlər yerinə yetirilmişdir.

## Tədbirlər

Elmin İnkişafı Fondu 2019-ci ildə də, ötən illərdə olduğu kimi, ölkədə elmin inkişafına töhfə verən, elmin təşkili və təbliği ilə bağlı bir sıra əhəmiyyətli tədbirlərin təşkilatçısı və ya həm-təşkilatçısı olmuşdur.

Alimlər üçün əlavə yaradıcılıq imkanının yaradılmasının yollarından biri qrantlar verilməsidirsə, digər yolu alimlərin elmi məlumat bazalarına çıxışının təmin edilməsidir. Elmin İnkişafı Fondu müvafiq istiqamətdə öz töhfəsini verməyə çalışır və dünyanın mötəbər nəşriyyatları, akademik qurumları və eyni zamanda, məlumat bazası təqdim edən xüsusi şirkətlər ilə əməkdaşlıq əlaqələri qurur, onlarla birlikdə müxtəlif tədbirlər, treninqlər keçirir, layiqli elmi qurumlar və alimlərə birgə mükafatlar verir.

### 6. "Clarivate Analytics"in seminar-təlimi

2019-ci il 9 dekabr tarixində Elmin İnkişafı Fondunda dünyanın ən iri elmi informasiya və analitik təhlil nəşr şirkətlərindən biri olan "Clarivate Analytics"in Rusiya və MDB ölkələri üzrə təhsil proqramının rəhbəri Valentin Boqorov və bu qurumun Azərbaycan üzrə nümayəndəsi Aygün Babazadənin iştirakı ilə Fondun əməkdaşları üçün seminar-təlim keçirilmişdir.

Tədbirdə uğurlu, müasir beynəlxalq səviyyəli elmi jurnalın formalaşdırılması, inkişaf etmiş ölkələrdə elmi nəşrin beynəlxalq səviyyədə tanıdılması, elmi əsərlərin keyfiyyətinin

artırılması, elmi jurnalların və əsərlərin beynəlxalq referativ bazalarda istinadlarının maksimuma çatdırılması ilə bağlı diskussiyalar aparılmışdır.

## Qrantlar üzrə nəticələr və dərc olunmuş məqalələr

Qrant layihələri üzrə alınmış elmi nəticələr və çap olunmuş əsərlər (məqalələr, tezislər, icmallar və s.) haqqında məlumat Elmin İnkişafı Fondunun rəsmi internet portalında yerləşdirilmişdir: http://sdf.gov.az/az/generic/menu/Detail/128/menu//

Bu məlumat bazası daima yenilənməkdədir.

## Qanunvericiliklə bağlı işlər və təşkilati fəaliyyət

**1. “Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası” ilə bağlı görülmüş işlər**

Elmin İnkişafı Fondu Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 2017-ci il 11 oktyabr tarixli 416 nömrəli Qərarla təsdiq olunmuş “Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası”nın hazırlanmasında, müzakirələrində və redaktəsində birbaşa iştirak etmişdir. Fondun təkliflərinin mütləq əksəriyyəti qəbul olunmuşdur.

## 2. Beynəlxalq əlaqələr, görüşlər və tədbirlərdə iştirak

2019-ci il 25 sentyabr tarixində Belarus Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirliyinin 3-cü katib **İqor Poluyçik** Elmin İnkişafı Fondunda olub.

Görüşdə qeyd olunmuşdur ki, Elmin İnkişafı Fondu bir daha Azərbaycan və Belarus arasında əlaqələrin inkişaf etdiyini, Fond tərəfindən konkret əməkdaşlıq təklifləri olaraq uyğun strukturlar (fondlar) arasında əməkdaşlıq sənədlərinin imzalanması, Belarus-Azərbaycan birgə qrant müsabiqələrinin davam etdirilməsi və yeni qrant müsabiqələrinin keçirilməsi, Belarus və Azərbaycan alimlərinin qarşılıqlı təcrübəkeçmə üzrə mübadiləsi, Belarus Respublikasının elmi qurumları ilə əməkdaşlıq məsələləri, birgə tədbirlərin keçirilməsi, ekspertiza sahəsində birgə fəaliyyət kimi ideyalar irəli sürülüb.

Qeyd olundu ki, digər sahələrdə olduğu kimi elmi əməkdaşlıq da yeni dövrün tələblərinə uyğun olaraq qurulmalı, birgə maraq doğuran elmi prioritetlər nəzərə alınmaqla və tətbiqi sahələrə üstünlük verilməklə əməkdaşlığa başlanılmalıdır.

O, Belarus və Azərbaycan alimləri arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə hər cür dəstək göstəriləcəyinə əmin olduğunu qeyd edib.

2019-ci il 14-18 dekabr tarixlərində Avropa Komissiyasının **“HORİZON-2020” Proqramının Şərq Tərəfdaşlığı üzrə “EaP Plus” beynəlxalq layihəsinin** iki icraçısı Azərbaycanda elm, texnologiyalar və innovasiya sahəsində mövcud vəziyyəti qiymətləndirmək və təkliflər toplusu hazırlamaq üçün Bakıda olmuş, AMEA, təhsil qurumları və digər təşkilatlarda missiyanı həyata keçirmişlər. Elmin İnkişafı Fondu bu missiyaya təşkilati yardım göstərmişdir.

## Ölkədaxili tədbirlərdə iştirak

Elmin İnkişafı Fondu 2019-cu ildə AMEA, Təhsil Nazirliyi, Müəllif Hüquqları Agentliyi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Gənclər Fondu, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, ADA Universiteti, Bakı Dövlət Universiteti, Dövlət Neft və Sənaye Universiteti, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti və digər qurumlarla səmərəli əməkdaşlıq etmişdir.

## Elmin İnkişafı Fondunun məsləhət seminarları

Elmin İnkişafı Fondu 2019-cu ildə də qrant iddiaçılarına kömək göstərilməsi məqsədi ilə alim və tədqiqatçıların mütəmadi görüşlər, onlarla məsləhət seminarları keçirmişdir.

Seminarların keçirilməsində məqsəd qrant iddiaçılarına müsabiqəyə təqdim olunacaq layihələrin tərtibatı, həmçinin “e-QRANT” sistemindən və “ASAN-İmza”dan istifadə üzrə məsləhətlərin verilməsi, ortaya çıxan sualların cavablandırılmasıdır.

Əvvəlki müsabiqələr üzrə toplanmış təcrübə göstərir ki, bu cür seminarlarda qrant iddiaçılarının iştirakı kifayət qədər effektiv olur və layihənin tərtibatına müsbət təsir göstərir.

## Xüsusi tədbirlər

2019-cu il ərzində bir sıra dövlət bayramları, xatirə və anım günləri Elmin İnkişafı Fondunun icraçı direksiyasında qeyd edilmiş, digər qurumların tədbirlərində Fond təmsil olunmuşdur.

## İctimaiyyətlə və KİV-lərlə əlaqələr

Elmin İnkişafı Fondu ictimaiyyət və kütləvi informasiya vasitələri (KİV) üçün şəffaf olmuş, müsahibələr verilmiş, müxtəlif verilişlərdə qurumun fəaliyyəti işıqlandırılmışdır. AzTV-nin "Səhər" proqramı, "Mədəniyyət" TV kanalı, İTV-nin "Yeni gün" proqramı, NTV-nin "Xəbərlər" verilişləri, Belarusun RTR kanalı, "ASAN-Radio", AzərTac, APA və digər informasiya agentlikləri ilə əlaqələr xüsusi qeyd olunmalıdır.

2019-cu ildə qrant layihələrinin az məbləğdə maliyyələşdirilməsinin səbəbi 11.03.2019- 23.09.2019-cu il tarixlərində Fondun rəhbərinin və onu əvəz edəcək şəxsin olmamasıdır.